*layihə*

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

### “Yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış əlilliyi olan şəxs vəfat etdiyi halda həmin uçotun onun ailə üzvləri üçün saxlanılması Qaydası”nın təsdiq edilməsi haqqında

“Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanının 1.1.19-cu yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. “Yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış əlilliyi olan şəxs vəfat etdiyi halda həmin uçotun onun ailə üzvləri üçün saxlanılması Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Bu qərarda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Novruz Məmmədov**

Bakı şəhəri, _____________

№ _______

*layihə*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2018-ci il ________ tarixli __ nömrəli qərarı ilə

təsdiq edilmişdir

**Yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış əlilliyi olan şəxs vəfat etdiyi halda həmin uçotun onun ailə üzvləri üçün saxlanılması**

**Q A Y D A S I**

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 31.2-ci maddəsinə əsasən hazırlanmışdır və yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış əlilliyi olan şəxs vəfat etdiyi halda həmin uçotun onun ailə üzvləri üçün saxlanılması qaydasını müəyyən edir.

1.2. Bu Qaydada istifadə edilən anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. Əlilliyi olan şəxsin uçotunun saxlanılması - yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış vəfat etmiş əlilliyi olan şəxsin (bundan sonra - əlilliyi olan şəxs) yaşayış sahəsini əldə etməsi üçün növbəlilik sırasındakı yerini müəyyən edən uçot işinin nömrəsinin onun əvəzinə uçota alınacaq ailə üzvü (üzvləri) üçün saxlanılması;

1.2.2. Əlilliyi olan şəxsin ailə üzvləri - əlilliyi olan şəxs yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınarkən onun ailə üzvləri kimi qeydiyyata alınmış şəxslər;

1.2.3. Uçota alınmanı həyata keçirən orqan - əlilliyi olan şəxsin Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 51.3-cü maddəsinə əsasən yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alındığı müvafiq yerli icra hakimiyyəti orqanı və ya bələdiyyə orqanı.

## 2. Əlilliyi olan şəxs vəfat etdiyi halda həmin uçotun onun ailə üzvləri üçün saxlanılması

2.1. Əlilliyi olan şəxsin uçotunun saxlanılması məqsədilə Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1159-cu maddəsinə uyğun olaraq, vərəsələrin növbəliliyi nəzərə alınmaqla, ailə üzvlərinin birgə razılığı əsasında ailənin yetkinlik yaşına çatmış üzvlərindən biri (bundan sonra - təmsilçi) əlilliyi olan şəxsin vəfat etdiyi gündən etibarən 3 (üç) ay müddətində uçota alınmanı həyata keçirən orqana bu Qaydaya 1 nömrəli Əlavədə nəzərdə tutulmuş formada ərizə ilə müraciət edir.

2.2. Ərizə ilə birlikdə uçota alınmanı həyata keçirən orqana aşağıdakı sənədlər təqdim edilir.

2.2.1. təmsilçinin və digər ailə üzvlərinin şəxsiyyətini təsdiq edən sənədlərin surətləri;

2.2.2. təmsilçilik barədə ərizə (bu Qaydaya 2 nömrəli Əlavə) (yaşayış yeri üzrə rayon (şəhər) icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin və ya "ASAN xidmət" mərkəzlərinin yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər haqqında arayışına əsasən notariat orqanı tərəfindən təsdiq edilir)

2.2.3. əlilliyi olan şəxsin ölümü haqqında şəhadətnamənin surəti;

2.3. Uçota alınmanı həyata keçirən orqan tərəfindən təmsilçiyə qəbul edilən sənədlərin siyahısı və sənədlərin qəbuledilmə tarixi barədə qəbz verilir. Çatışmayan sənəd (sənədlər) olduqda bu barədə qəbzdə müvafiq qeyd edilir.

2.4. Təqdim edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan çatışmazlıqlar aşkar edildikdə, uçota alınmanı həyata keçirən orqan bu barədə təmsilçiyə 1 (bir) iş günündən gec olmayaraq yazılı məlumat verir və həmin çatışmazlıqlar yazılı məlumatın alındığı gündən ən geci 7 (yeddi) iş günü ərzində təmsilçi tərəfindən aradan qaldırılır."

2.5. Bu Qaydanın 2.2-ci bəndində göstərilən sənədlərin təqdim edildiyi gündən 30 (otuz) iş günündən gec olmayaraq uçota alınmanı həyata keçirən orqan tərəfindən təmsilçinin əlilliyi olan şəxsin əvəzinə uçota alınması və ya bundan imtina edilməsi barədə qərar qəbul edilir. Uçota almanı həyata keçirən orqan qərarın qəbul edildiyi gündən 3 (üç) iş günündən gec olmayaraq qərarın surətini təmsilçiyə təqdim edir və ya göndərir.

2.6. Təmsilçinin əlilliyi olan şəxsin əvəzinə uçota alınması barədə qərar qəbul edildikdən sonra uçota alınmanı həyata keçirən orqan tərəfindən Yaşayış sahələrinə ehtiyacı olan vətəndaşların uçotu jurnalının "Uçotdan çıxarılma və ya uçotun vəfat etmiş əlilin ailə üzvü üçün saxlanılması haqqında qeyd (əsası göstərilməklə)" sütununda əlilliyi olan şəxsin uçotunun təmsilçi üçün saxlanılması və ya onun uçotdan çıxarılması haqqında müvafiq qeydlər aparılır.

2.7. Uçota alınmış təmsilçinin təqdim etdiyi sənədlər əlilliyi olan şəxs uçota alınarkən onun üçün açılmış uçot işinə əlavə edilir.

## 3. Əlilliyi olan şəxsin uçotunun onun ailə üzvləri üçün saxlanılmasından imtina edilməsi

3.1. Vəfat etmiş əlilliyi olan şəxsin uçotunun onun ailə üzvləri üçün saxlanılmasından aşağıdakı hallarda imtina edilir:

3.1.1. bu Qaydanın 2.2-ci bəndində qeyd edilmiş sənədlər təqdim edilmədikdə;

3.1.2. əlilliyi olan şəxsin vəfat etməsi ilə onun ailə üzvlərinin sərəncamında olan yaşayış sahəsinin (sahələrinin) Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 49.5-ci maddəsi ilə müəyyən edilmiş uçot normasına əsasən ailə üçün kifayət etdiyi müəyyən edildikdə;

3.1.3. təmsilçi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq ləyaqətsiz vərəsə hesab edildikdə.

3.2. Əlilliyi olan şəxsin uçotunun saxlanılmasından imtina edilməsi haqqında qərar imtinanın səbəbləri göstərilməklə əsaslandırılmalıdır.

3.3. Əlilliyi olan şəxsin uçotunun saxlanılmasından imtina edilməsi haqqında qərarın surəti onun qəbul edildiyi gündən 3 (üç) iş günündən gec olmayaraq təmsilçiyə təqdim edilir və ya göndərilir. Həmin qərardan təmsilçi tərəfindən "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq inzibati icraat qaydasında və ya məhkəmə qaydasında şikayət verilə bilər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin _____ il __ ________ tarixli ___nömrəli Qərarı ilə təsdiq edilmiş "Yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış əlilliyi olan şəxs vəfat etdiyi halda həmin uçotun onun ailə üzvləri üçün saxlanılması Qaydası"na

1 NÖMRƏLİ ƏLAVƏ

________________________ **İcra Hakimiyyətinə (bələdiyyəsinə)**
(rayon,şəhər)

____________________ rayonu (şəhəri) ___________________ rayonu, qəsəbəsi, kəndi _________________________________ küçəsi, ev _______ mənzil ______ ünvanında yaşayan
telefon nömrəsi (nömrələri): _________________________________________________
şəxsiyyət vəsiqəsi: seriyası ___________ № _______________________
vətəndaş _______________________________________________________________
(soyadı, adı, atasının adı)
tərəfindən

**ƏRİZƏ**

Xahiş edirəm, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 31.2-ci maddəsinə əsasən, mənim _________________________ tarixində
(gün.ay.il)
_______________________________________________________________________
(yerli icra hakimiyyəti orqanının və ya bələdiyyə orqanının adı)
yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış _______________________
(qohumluq əlaqəsi)
_______________________________ əvəzinə uçota alınmağıma köməklik göstərəsiniz.
(soyadı, adı, atasının adı)

Ərizəyə aşağıdakı sənədləri əlavə edirəm.

| Sıra №-si | Sənədin adı | Vərəqlərin sayı |
|---|---|---|
| 1. | | |
| 2. | | |
| 3. | | |

İmza _____________________ Tarix ______________________

Azərbaycan Respublikası Nazirlər Kabinetinin _____ il __ ________ tarixli ___nömrəli Qərarı ilə təsdiq edilmiş “Yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış əlilliyi olan şəxs vəfat etdiyi halda həmin uçotun onun ailə üzvləri üçün saxlanılması Qaydası”na

*2* NÖMRƏLİ ƏLAVƏ

________________________ **İcra Hakimiyyətinə (bələdiyyəsinə)**
(rayon,şəhər)

1. _______________________________________________ ünvanında qeydiyyatda olan
(qeydiyyat ünvanı)

________________________________ ________________________________________
(ailə üzvünün soyadı, adı, atasının adı) (şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi, verən orqan, verilmə tarixi)

2. _______________________________________________ ünvanında qeydiyyatda olan
(qeydiyyat ünvanı)

________________________________ ________________________________________
(ailə üzvünün soyadı, adı, atasının adı) (şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi, verən orqan, verilmə tarixi)

3. _______________________________________________ ünvanında qeydiyyatda olan
(qeydiyyat ünvanı)

________________________________ ________________________________________
(ailə üzvünün soyadı, adı, atasının adı) (şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi, verən orqan, verilmə tarixi)

tərəfindən

**ƏRİZƏ**

________ **nömrəli**

Biz, ____________________________________________ yaşayış sahəsinə ehtiyacı
(yerli icra hakimiyyəti orqanının və ya bələdiyyə orqanının adı)
olan şəxs qismində uçota alınmış, vəfat etmiş __________________________________
(soyadı, adı, atasının adı)
18 yaşına çatmış ailə üzvləri mənzil uçotunun saxlanılması üçün müraciətin edilməsi məqsədilə __________________________________________ ailəmizi təmsil edən şəxs
(təmsilçinin soyadı, adı, atasının adı)
qismində qeydə alınmasına razılığımızı bildiririk.

1. _______ _________________________________ (telefon nömrəsi ______________)
(imza) (təmsilçinin soyadı, adı, atasının adı)

2. ________ ____________________________________ (telefon nömrəsi ______________)
(imza) (ailə üzvünün soyadı, adı, atasının adı)

3. ________ ____________________________________ (telefon nömrəsi ______________)
(imza) (ailə üzvünün soyadı, adı, atasının adı)

Mən, __________________________ notariusu ______________________________________
(notariat kontorunun adı) (notariusun soyadı, adı, atasının adı)

ailə üzvlərinin mənim istirakımla etdikləri imzalarının həqiqiliyini təsdiq edirəm.

Reyestrdə ________ № ilə qeyd edilmişdir.

____________ manat haqq tutulmuşdur.

**M.Y.**

Notarius __________________________
(imza)